# AZƏRBAYCANDA REGİONAL KİTABXANAŞÜNASLIQ TƏDQİQATLARININ TƏŞKİLİNDƏ PROFESSOR ABUZƏR XƏLƏFOVUN ELMİ-NƏZƏRİ İRSİ MƏNBƏŞÜNASLIQ BAZASI KİMİ

**Daşqın Məhəmmədli**

*BDU, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi*

Müasir şəraitdə regional kitabxanaşünaslıq tədqiqatlarının təşkilinin elmi-nəzəri mənbə bazalarının müəyyənləşdirilməsi və əsaslandırılması müvafiq aspektdə xüsusi elmi və metodiki aktuallığı ilə səciyyələnir. İstər dünya, istərsə də milli kitabxanaşünaslıqda regional kitabxana-informasiya şəbəkələrinin kompleks elmi tədqiqatlara cəlb edilməsi intensiv mütərəqqi elmi istiqamət kimi mütəxəssislər qarşısında dayanır. Azərbaycanda regional kitabxanaşünaslığa dair ilkin elmi ümumiləşdirmələr Azərbaycan milli kitabxanaşünaslığının banisi, Əməkdar elm xadimi, professor Abuzər Xələfovun kitabxanaşünaslığın tarixi, nəzəriyyəsi və metodikasına dair çoxsaylı elmi əsərlərində verilmişdir. Məhz buna görə də Respublikamızda konkret regionlar üzrə kitabxana-informasiya sahəsinə dair aparılan elmi tədqiqatlarda professor Abuzər Xələfovun çoxillik irsi ilkin elmi-nəzəri mənbə bazası kimi şərh edilir. Belə ki, dosent A.Əliyevin Azərbaycanın Naxçıvan, tarix üzrə fəlsəfə doktoru Əlizadə Nəcəfovun Dağlıq Qarabağ, tarix üzrə fəlsəfə doktoru İradə Bayramovanın Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran, doktorant Daşqın Məhəmmədlinin Şəki-Zaqatala regionlarında kitabxana-informasiya sahəsinin tarixinə, inkişaf perspektivlərinə və lokal səciyyəvi xüsusiyyətlərinə dair aparılan elmi tədqiqatların nəzəri preambulasında məhz professor Abuzər Xələfovun çoxillik elmi-nəzəri əsərləri konkret əsaslandırmalarla mənbə bazası kimi göstərilmişdir.

Professor Abuzər Xələfovun kitabxanaşünaslığın tarixi, nəzəriyyəsi və metodologiyasına dair qələmə aldığı fundamental elmi əsərlərində regional kitabxanaşünaslıq elementləri ümumi şəkildə əsaslandırılmış, onun coğrafi və iqtisadi seqmentlər üzrə təşkili məqsədəuyğun sayılmış, eləcə də, regional kitabxanaşünaslığa dair qabaqcıl dünya təcrübəsinin müddəalarının şərhinə yer ayrılmışdır.

Professor Abuzər Xələfovun elmi-nəzəri irsində regional kitabxanaşünaslığa dair tədqiqatların təşkilində tarixi-müqayisəli təhlil metodlarının tətbiqi amili önə çəkilir. Alim belə bir elmi qənaətə gəlir ki, hər bir iqtisadi-coğrafi regionun kitabxana-informasiya infrastrukturuna dair tədqiqatlar aparılarkən ilk növbədə həmin bölgənin səciyyəvi lokal tarixi xüsusiyyətləri və mental ənənələri kontekstində kitabxana-bibliqrafiya və informasiya xidmətinin təşkili vəziyyətini qiymətləndirmək və ümumiləşdirmək daha məqsədəuyğundur.

Beləliklə, professor Abuzər Xələfovun elmi irsində regional kitabxanaşünaslığa dair formalaşan ilkin nəzəri elementlərin və ortaya qoyulan əsaslandırılmış ideyaların yer aldığı fundamental əsərlər ciddi aktuallığa malik zəngin nəzəri mənbə bazası kimi öz aktuallığını qoruyub saxlamaqdadır.